Academic Journal of History and Idea   Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292

*Araştırma Makalesi*   https://doi.org/10.46868/atdd.129   *Original Article*

# Şəkinin Qədim Dövr Qadın Zinət Əşyaları

**Elşən Abdurahmanov***
**ORCID: 0000-0001-7786-8391**

**Aygül Xəlilova****
**ORCID: 0000-0002-0661-2716**

**Xülasə**

Arxeoloji qazıntılar zamanı əldə edilən çoxsaylı zinət əşyaları və aksesuarlar əcdadlarımızın tunc dövründən etAibarən bahalı paltarlar geyindiklərini, zövqlə bəzəndiklərini söyləməyə əsas verir. Zinət və bəzək əşyalarına tələbatın tədricən artması bədii sənətkarlığın əsas tərkib hissələrindən biri olan zərgərlik sənətinin yaranmasına və inkişafına yol açmışdır. Tarixin müxtəlif dövrlərində zinət və bəzək əşyalarından kişilərin də istifadə etməsinə baxmayaraq, bu predmetlər əsasən qadınlara məxsus olmuşdur. İstər arxeoloji abidələrdən aşkar edilən maddi-mədəniyyət nümunələri içərisində, istərsə də epiqrafik abidələr üzərindəki təsvirlərdə qadınlara məxsus zərgərlik məmulatları və aksesuarlarına daha çox rast gəlinir. Azərbaycan Respublikasının şimal-qərb bölgəsində yerləşən Şəki şəhəri mühüm sənətkarlıq mərkəzlərindən biri kimi zərgərliyin də inkişaf etdiyi məkanlardan biri olmuşdur. Lakin Şəkinin qədim dövr sənətkarlığı indiyədək sistemli şəkildə araşdırılmamış, tədqiqatlardan kənarda qalmışdır.  Müəlliflər tədqiqat işində müxtəlif tarixi dövrlərdə Şəki və ətraf bölgələrdən aşkar edilən qadın zinət əşyaları və aksesuarlarını təhlil etməklə bu sənət sahəsinin keçdiyi inkişaf mərhələlərinə nəzər salmış, onları sistemli şəkildə işıqlandırmağa çalışmışlar. Tədqiqat zamanı ərazidə aparılan arxeoloji qazıntıların nəticələrinə, yazılı mənbələrə, etnoqrafik müşahidələrə və muzey materiallarına istinad edilmişdir.

**Açar sözlər:** Azərbaycan Respublikası, Şəki şəhəri, qadın bəzəkləri, zinət əşyaları

**Gönderme Tarihi: 26/03/2021**   **Kabul Tarihi:20/07/2021**

---

**Elmi Katip, Azerbaycan Milli İlimler Akademisi Şeki Bölgesel Elmi Merkezi, Şeki-Azerbaycan, abdurahmanov.elshen40@gmail.com*
***Elmi İşçi, Azerbaycan Milli İlimler Akademisi Şeki Bölgesel Elmi Merkezi, Şeki-Azerbaycan, aygul.xelilova@bk.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
ABDURAHMANOV, E. ve  XƏLILOVA,  A., ‘’Şəkinin Qədim Dövr Qadın Zinət Əşyaları’’, *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 3, 2021, s.1002-1017.

**© ATDD Tüm Hakları Saklıdır**
CC BY

# Ancient Women Jewelry of sheki

**Elşən Abdurahmanov*** **ORCID: 0000-0001-7786-8391**

**Aygül Xəlilova**** **ORCID: 0000-0002-0661-2716**

**Abstarct**

Numerous jewelry and accessories found during archeological excavations suggest that our ancestors wore expensive clothes and decorated them with taste since the Bronze Age. The gradual increase in demand for jewelry and decoration things led to the development of jewelry art, which is one of the main components of artistic craftsmanship, and made condition for the creation of toponyms of this art in settlements. Although jewelry and decoration things have been used by men at various times in history, these things have mostly belonged to women. For this reason, both in material-cultural samples found in archeological monuments and descriptions on epigraphic monuments it is more happened jewelry and accessories belonged to women. Sheki, located in the north-western region of the Republic of Azerbaijan, was one of the places where jewelry developed as one of the important centers of craftsmanship, and various types of jewelry and decoration things were made elegantly. But, the ancient art of Sheki has not been systematically studied and has been out of the research.The authors looked at the stages of development of this art field and tried to cover them systematically by analyzing jewelry and accessories found in Sheki and surrounding areas in different historical periods. During the research, it was referred to the results of archeological excavations in the area, written sources, ethnographic observations, and museum materials.

**Keywords:** The Azerbaijan Republic, Sheki city, woman decorations, jewelry

**Received Date: 26/03/2021** **Accepted Date: 20/07/2021**

---

**Scientific secretary, Azerbaijan National Academy of Sciences Sheki Regional Scientific Center, Sheki-Azerbaijan, abdurahmanov.elshen40@gmail.com*

***Scientist, Azerbaijan National Academy of Sciences Sheki Regional Scientific Center, Sheki-Azerbaijan, aygul.xelilova@bk.ru*

***You can refer to this article as follows:***
ABDURAHMANOV, E. ve XƏLILOVA, A., ''Şəkinin Qədim Dövr Qadın Zinət Əşyaları'', *Academic Journal of History and Idea,* Vol. 8, Issue 3, 2021, p.1002-1017.

# ДРЕВНИЕ ЖЕНСКИЕ УКРАШЕНИЯ ШЕКИ

**Эльшан Абдурахмано*** **Айгуль Халилова****
**ORCID: 0000-0001-7786-8391** **ORCID: 0000-0002-0661-2716**

**Резюме**

Многочисленные украшения и аксессуары, найденные при археологических раскопках, подтверждают, что наши предки носили дорогую одежду и одевались со вкусом еще со времен бронзового века. Постепенное возрастание потребностей на ювелирные изделия и украшения привело к возникновению и развитию ювелирного искусства, которое является одним из основных компонентов художественного мастерства. Несмотря на то, что в разные времена исторические периоды мужчины тоже пользовались ювелирными украшениями, но эти предметы в основном принадлежали женщинам. Женские украшения и аксессуары чаще встречаются в материальных и культурных образцах, обнаруженных в археологических памятниках, а также в изображениях на эпиграфических памятниках. Город Шеки, расположенный на северо-западном регионе Азербайджанской Республики, был одним из важнейших центров мастерства, где развивалось ювелирное дело. Однако, древнее искусство Шеки до сих пор систематически не изучалось и осталось неисследованнным.Авторы проанализировали женские украшения и аксессуары, найденные в Шеки и его окрестностях в разных исторических периодах, рассмотрели этапы развития этого направлении искусства и попытались освещать их систематически. При исследовании опирались на результаты археологических раскопок, письменные источники, этнографические наблюдения и музейные материалы.

**Ключевые слова:** Азербайджанская Республика, город Шеки, женские украшения, ювелирные изделия

**Получено: 26/03/2021** **Принято: 20/07/2021**

---

* *Научный секретарь, Региональный центр Национальной академии наук Азербайджана, Шеки-Азербайджан, abdurahmanov.elshen40@gmail.com*
** *Ученый, Региональный центр Национальной академии наук Азербайджана, Шеки-Азербайджан, aygul.xelilova@bk.ru*

***Ссылка на статью:***
ABDURAHMANOV, E. ve XƏLILOVA, A., ‘’Şəkinin Qədim Dövr Qadın Zinət Əşyaları’’, *академическая история и мысль*, T.8, NO.3, 2021, C.102-1017.

**Giriş**

Azərbaycanın şimal-qərb bölgəsində özünəməxsus sənətkarlığı və mədəni abidələri, incəsənət nümunələri ilə seçilən Şəki antik və erkən orta əsrlərdə Qafqaz Albaniyasının tərkibinə daxil olmuş, erkən orta əsrlərdə inzibati-dini mərkəzlərdən birinə çevrilmişdir.[1] Albaniyanın paytaxtı Qəbələ ilə qonşuluq təşkil etməsi, mühüm daxili və xarici ticarət yolları üzərində yerləşməsi Şəkinin ticarət əlaqələrini artırmış, ərazidə əmtəə istehsalını genişləndirmişdir. Bu amillər bölgədə dini və mülki memarlığın, müxtəlif sənətkarlıq növlərinin daşişləmə, metalişləmə, dulusçuluq, dəriişləmə və başqa bu kimi sahələrin inkişafına təsir etmişdir. Bununla belə, bölgədə sənətkarlığın inkişafını yalnız qeyd edilən dövrlə lokallaşdırmaq yalnış olar. Ərazidə aparılan arxeoloji tədqiqatlar hələ Eneolit və Erkən Tunc dövrlərindən etibarən Şəkidə sənətkarlığın bir çox sahələrinin mövcudluğu və formalaşmasından xəbər verir.[2] Sənətkarlıq sahələri içərisində bəzək əşyalarının hazırlanması özünəməxsus yer tutur. Şəki və ətraf ərazilərdə aparılan arxeolji qazıntılar Orta və Son Tunc dövrlərində müxtəlif növ daşlardan, pastalardan, mis, tunc və qızıl materiallarından bəzək nümunələrinin hazırlanmasını, bu ənənənin sonrakı dövlərdə də davam etiyini söyləməyə imkan verir. Əldə edilən bəzək nümunələrini kişi, qadın və uşaq bəzəkləri olaraq qruplaşdırmaq mümkündür. Bəzək nümunələri və zinət əşyalarına müxtəlif tarixi dövrləri əhatə edən yaşayış yerləri və qəbir abidələrində aparılan arxeoloji tədqiqiatlar zamanı rast gəlmək mümkündür. Xristianlığın, xüsusən İslam dininin qəbul edilməsindən sonra qəbirlərə silah, qab-qacaq, qida məhsulları, həmçinin zinət əşyalarının qoyulması qadağan edildiyindən belə nümunələrin bir çoxunun təsvirlərinə başdaşılar üzərində rast gəlmək mümkün olur. Xüsusilə, XIX-XX əsrin əvvəllərinə aid qəbir abidələrinə nəzər saldıqda başdaşılar üzərində hərbi (xəncər, tüfəng, tapanca), dini (məscid, minarə, səccadə, ibrik, təsbeh), məişət (şam, saat) təsvirləri ilə yanaşı kişi və qadın bəzək və aksesuarlarını (üzük, bilərzik, gərdanlıq, kəmər, medalyon və s.) görə bilərik.[3] İstər arxeoloji, istərsə də epiqrafik abidələrdə əks olunan bəzək abidələri içərisində qadın zinət əşyaları xüsusilə diqqəti cəlb edir.

---

[1] Farida Mamedova, *Kavkazskaya Albaniya i albanı,* Sentr İssledovaniy Kavkazskoy Albanii, Baku 2005, s. 254-255.

[2] Tufan Axundov, *Severo-zapadnıy Azerbaydjan v epoxu eneolita-bronzı,* “Elm” , Baku 2001.

[3] Elşən Abdurahmanov ve Habil Xəlilov , “Şəki şəhərinin XVIII-XX əsr epiqrafik abidələri”, *“Elm tarixi, elmşünaslıq:fənlərarası tədqiqatlar” mövzusunda I beynəlxalq elmi konfrans,* Bakı, 29-30 oktyabr 1918-ci il, s. 387-394.

Zinət əşyaları və bəzək nümunələrinə tələbatın artması önəmli sənət sahəsinə çevrilən zərgərliyin inkişafına yol açır. XIX əsrdə Şimali Azərbaycanda Naxçıvan, Ordubad, Gəncə, Şəki, Şamaxı, Bakı, Quba, Şuşa, Lənkəran və Salyan şəhərləri başlıca zərgərlik mərkəzləri sayılırdı. 1846-cı ildə Şəki bazarında sənətkarlara məxsus dükanların, yaxud kiçik sənətkar emalatxanalarının sayı 296 idi ki, bunlardan 10-u zinət ustalarına aid idi.[4] XIX yüzilliyin 50-ci illərində Gəncədə 24 zərgər, 80-ci illərdə Qazax qəzasının Şəmşəddil sahəsində 3, Zəyəm stansiyasında 2 gümüşbənd, XIX-XX yüzilliyin hüdudlarında isə Bakıda 130 nəfər qeydiyyatdan keçmiş zinət ustası və 89 nəfər şagirdi, Şamaxıda 25, Salyanda 13, Qubada 12, Gəncədə 33, Nuxada 22, Şuşada 12 nəfər zinət ustası fəaliyyət göstərirdi.[5]

Sənətkarlığın genişlənməsi və inkişafı şəhərlərdə müxtəlif peşə sahələri, həmçinin zinət əşyaları istehsalı sahəsi ilə bağlı məhəllələrin meydana gəlməsinə şərait yaradır. Azərbaycanın müxtəlif şəhərlərində, həmçinin Şəkidə XIX əsrin sonu-XX əsrin əvvəllərində kustar istehsalla bağlı "Duluslar", "Başmaqçılar", "Şərbaflar", "Dabbaxlar", "Sabunçular", "Çanaxçılar", "Təkəlduzlar", Zərgərlər" və sair. kimi məhəllələr mövcud idi.

XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid qadın zinət əşyaları və bəzəklərinin funksiyasına və geyilmə qaydalarına görə dörd qrupa bölündüyü qeyd edilir: 1. Baş bəzəkləri (telbasan, qarmaq, başlıq, sütqabağı, dingə, sırğa, tac, təsəkqabağı, süs, sığsığa, sancaq və daraqlar); 2. Boyun-sinə bəzəkləri (boyunbağı, medalyon, silsilə, boğazaltı, imarət, xirtdəklik, zəncirə, sinəbənd, çiçək, qarabatdaq, aypara, müxtəlif asmalar, muncuqlar); 3. Qol və barmaq bəzəkləri (bilərzik, qolbaq, üzük, xatəm və s.); 4. Bel və geyim bəzəkləri (kəmər, belbağı, kəmərbənd, düymə, imperial, çervon, pilək, sancaq və libaslara bənd olunan müxtəlif formalı bəzəklər).[6]

## I. Şəkinin tunc və erkən dəmir dövrü qadın bəzəkləri

İbtidai insanların ilk təmasları təbiət, təbiət ünsürləri olduğundan ilk inancları da təbiətlə bağlı yaranır, mahiyyətindən asılı olmayaraq ilk bəzək əşyalarını təbii cisim və elementlər təşkil edir, zinət əşyaları müxtəlif daşlardan, sümük, buynuz, diş və s. kimi məmulatlardan hazırlanırdı. İlk bəzək nümunələri sadəcə bəzək, aksesuar, görüntü səciyyəsi deyil, həmçinin sehr, cadu, hətta mifoloji xarakter daşıyırdı.[7]

---

[4] Kavkaz qəzeti (rus dilində), 13 iyun, 1846-cı il, №24.

[5] *Azərbaycan etnoqrafiyası*, Üç C.də, II C.; "Şərq-Qərb", Bakı 2007, s. 145.

[6] Kamilə Əliyeva, *Azərbaycanın qadın bəzəklərinin təsnifatı*, 2017-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları, Elmi sessiyanın materialları, Arxeologiya və Etnoqrafiya İnstitutu, Bakı 2017, s. 87.

[7] Vladimir Andreevskiy, *İstoriya Odejdı*, Voloqda "Qosizdat" 1922, s. 5.

Arxeoloji tədqiqatlar nəticəsində qədim yaşayış yerlərində və qəbir abidələrində bir sıra maddi-mədəniyyət nümunələri ilə yanaşı bəzək və zinət əşyalarına da rast gəlinmişdir. Hələ 1931-1936-cı illərdə aparılan qazıntılar zamanı Üst Paleolit düşərgələrindən birində mamont, ayı, mağara şiri və başqa heyvan heykəlcikləri ilə yanaşı qadın heykəlcikləri, bəzək şeyləri də tapılmışdır.[8] Qəbirlərə ölən adamın yanına sağlığında onun işlətdiyi əmək alətlərindən başqasümükdən və daşdan hazırlanan muncuqların, çox sayda bəzək əşyalarının qoyulması adəti qədim dövrün bir çox etnoslarında mövcud olmuşdur.[9]

Zinət və bəzək məmulatlarının daha çox qəbir abidələrində aşkarlanması əhalinin həyat tərzində və inanclarında onların mühüm yer tutmasına şahidlik edir. Azərbaycanın qədim yaşayış məskənlərindən olan Qobustandakı "Firuz" düşərgəsində açılmış son mezolit qəbirindəki insan skeletləri bu baxımdan diqqət çəkir. Burada on nəfər yaşlı və bir uşaq birlikdə bükülü vəziyyətdə dəfn edilmişdir. Sümüklərin yanında daş muncuqlar, qaban dişindən, xırda daşlardan düzəldilmiş asmalar və həmayillər, tortoxuyan alətlər, harpunlar aşkar edilmişdir.[10] İlk bəzəklərin meydana gəlməsi geyimlərin meydana gəlməsi ilə təxminən eyni tarixi dövrə aiddir. İstər kişi, istərsə də qadın geyimlərinin tamamlanmasında bəzək və aksesuarlardan geniş şəkildə istifadə edilmişdir. Bu bəzək nümunələri əsasən baş, sinə, qol bəzəkləri, kəmərlər və onlara kombinə edilmiş aksesuarlardan ibarət olmuşdur.[11]

İctimai inkişafın sonrakı mərhələsində cəmiyyətin həyatında baş verən sosial-iqtisadi, mədəni və ideoloji inkişaf, həmçinin metalişləmə sənətinin inkişafı bəzəklərin keyfiyyətinin və xarakterinin dəyişməsinə səbəb olmuşdur. Azərbaycan ərazisində ilk metal məmulatlar Eneolit dövründə meydana gəlsə də, Tunc və Dəmir dövrlərində metalişləmə təkmilləşmiş, mükəmməl silahlar, təsərrüfat və məişət alətləri ilə yanaşı müxtəlif çeşidli, qiymətli zinət əşyaları da hazırlanmışdır.[12] Mütəxəssislər Azərbaycanın qədim dövrə aid zinət əşyaları və bəzəklərinin təsnifatını aşağıdakı formada vermişlər:

***1) Baş bəzəkləri***

a) dingələr (kişi və qadına aid); b) dairəvi (diskşəkilli) lövhələr (onlar dingədən asılı olaraq başın qulaq və gicgah hissəsini örtmüşdür. Bu bəzək növü Qafqazda ancaq Azərbaycanda məlumdur); c) saç boruları və asmalar (bir qəbirdən 12-dək saç borusunun

---

[8] Yusif Həsənov, *İbtidai icma tarixi,* Dərs vəsaiti, Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, Bakı 1963, s. 79.

[9] Y. Həsənov, *a.g.e.,* s. 81.

[10] *Azərbaycan tarixi,* Uzaq keçmişdən 1870-ci ilə qədər (S.Əliyarlının redaktəsi ilə), II nəşri, "Çıraq", Bakı 2009, s. 16.

[11] *Azərbaycan etnoqrafiyası,* Üç C.də, II C., "Şərq-Qərb", Bakı, 2007, s. 95.

[12] *Azərbaycan tarixi,* Yeddi C.də, I C. (Ən qədimdən b.e. III əsri), "Elm", Bakı 2007, s. 142-146; 161-166.

tapılması saçın xırda hörüklərə bölünüb, borulara keçirildiyini göstərir, hörüklərin ucuna isə tökmə tunc çubuqlar asmışlar); ç) asma halqalar (ilanvari bəzək); d) sırğalar (halqavari); e) gərdənliklər (boyun bəzəyi); ə) sancaqlar;

***2) Sinə bəzəkləri:***

a) medalyonlar; b) eynəkvari asmalar; c) təbərzin formalı asmalar (kişi və qadın qəbirlərində təsadüf edilməsi onların hər iki cinsə məxsus olduğunu göstərir); ç) ayparalar; d) qaşıqvari asmalar; e) zınqırov asmalar; ə) quşfiqurlu asmalar, heyvan formalı asmalar (keçi, maral, at forması);

***3) Geyim bəzəkləri:***

a) düymələr (tuncdan, sürmədən, sümük, ağac və sədəfdən düzəldilmişdir); b) pilələr (paltara tikilmiş 200-500 arası sayda bir skelet ətrafında ola bilir); c) kəmərlər (ancaq kişi qəbirlərində rast gəlinir); ç) sancaqlar (öküz, keçi, at, yuvarlaq və aypara formalı başlıqlı və s.); d) kəmər bəndləri;

***4) Qol və ayaq bəzəkləri**:* a)bilərziklər; b)üzüklər (tunc, dəmir, sümükdən); *5) Muncuqlar* (əqiq, pasta və şüşə tərkibli).[13]

Şəki ərazisində aparılan arxeoloji tədqiqatların məhdudluğuna baxmayaraq, yuxarıda qeyd edilən bəzək nümunələrinin bir çoxuna bu bölgədə rast gəlinmişdir. Həmin nümunələrin öyrənilməsi nəticəsində bölgədə sənətkarlığın, o cümlədən zinət əşyaları hazırlanması işinin inkişafda olduğunu, burada yaşayan insanların yüksək zövqə malik zinət və bəzək əşyalarından istifadə etdiyini ifadə edə bilərik.

Qeyd etmək lazımdır ki, ərazinin arxeoloji cəhətdən tədqiqinə Azərbaycanın digər bölgələri ilə müqayisədə daha gec başlanılmışdır. 1980-ci illərin əvvəllərindən başlanan arxeoloji tədqiqatlar sistematiklyi ilə fərqlənməsə də, Şəkinin maddi və mənəvi mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyət kəsb etmişdir. 1983-cü ildə arxeoloq T.İ.Axundovun rəhbərliyi ilə Şəkinin Küdürlü kəndi ərazisində arxeoloji tədqiqatlara başlanılmış, növbəti illərdə Tunc dövrünə aid kurqanların öyrənilməsi işi davam etdirilmişdir.

1985-ci ildə arxeoloq T.İ.Axundovun rəhbərliyi ilə Şəkinin Küdürlü kəndi ərazisindəki kurqanların öyrənilməsi davam etdirilmiş, 7 kuqanda qazıntı işləri aparılmışdır. I kurqandan mərhumun boğaz hissəsindən üzəri nazik qızıl təbəqəli, əsası tuncdan, burma üsulu ilə hazırlanmış boyunbağı, digər məhumun baş nahiyəsindən saç asmalar-qızıl folqalardan (zərvərəqdən) tunc əsaslı disklər, qızıl düymə və sancaqlar, əqiqdən, dağ kristalı və digər materiallardan muncuqlar, xallı balıqqulağı, tunc xəncər, dəlikli iynə və digər maddi-

[13] Şahin Sadıqzadə, *Qədim Azərbaycan Bəzəkləri,* "İşıq" nəşriyyatı, Bakı 1971, s. 9-15.

mədəniyyət nümunələri aşkar edilmişdir. II kurqandan tunc boyunbağı (I kurqandakı ilə analoji olaraq), dəlikli tunc iynə, IV kurqandan daş, pasta və tuncdan hazırlanmış muncuqlar, dəlikli tunc iynə, başın gicgah hissəsini örtən lövhə, V kurqandan başın gicgah hissəsini örtən lövhə, VII kurqandan daş toppuzun bir hissəsi, daş alətlər və qızıl muncuq dənələri aşkarlanmışdır. Kurqanlarda dulus materialından hazırlanan qab-qacaqlara, müxtəlif alət və silahlarlara, heyvan və quş sümüklərinə də təsadüf edilmişdir.[14]

1996-cı ildə Şəkinin Küdürlü kəndi ərazisində tədqiq edilən 1 №-li kurqandan tunc üzük, 2 №-li kurqandan tuncdan qol bilərziyi, qırmızı, sarımtıl və ağ rəngli müxtəlif daş növlərindən muncuqlar tapılmışdır. Bilərziyin ucları birləşən yerdə qeyri-metal qırmızı rəngli muncuq birləşdirilmişdi.[15]

1999-cu ildə arxeoloq N.Muxtarov tərəfindən Şəkinin Daşüz-Cıdır düzü nekropolundan orta tunc dövrünün sonu-son tunc dövrünə aid kurqandan tuncdan hazırlanmış maral fiquru ilə yanaşı, dəridən hazırlanmış kəmər və ya qantarğa qalığı, müxtəlif silahlar və bəzək əşyaları aşkar edilmişdir. Bəzək əşyalrının bir qismi qadınlara məxus edilmişdir.[16]

Azərbaycan Milli Elmlər Akademiyasının Şəki-Oğuz arxeoloji dəstəsinin Şəki şəhərinin qonşuluğunda yerləşən Oğuz rayonu ərazisində 2008-ci ildə qazıntı işləri zamanı e.ə. II minilliyin II yarısı-e.ə. I minilliyin əvvəllərinə aid 1 saylı kurqandan qızıldan öküz başı, nazik təbəqəli qızıldan hazırlanmış may böcəyi (parabüzən) formasında sinə-bəzəyi, tuncdan ilan şəkilli (təsvirli) dairəvi halqa aşkar edilmişdir. Kurqandan həmçinin çoxsayda müxtəlif qiymətli daşlardan nəfis şəkildə hazırlanmış muncuqlar və boyunbağılar tapılmışdır**.** Şəkil 4,5.6.7.[17] Mütəxəssislər belə hesab edirlər ki, dairəvi şəkildə hazırlanan zinət və bəzək əşyaları bədii xarakterlə yanaşı, mifik səciyyə daşımışdır. Belə ki,"dairəvi düzəldilmiş bilərzik, üzük, boyunbağı, kəmər və bu kimi bir çox şeylər insanları "mühasirəyə" alaraq guya onu-insanı təhlükəsiz etmişdir.[18] Bilərziklərin və sırğaların uclarının əksərən ilan başı formasında düzəldilməsi isə çox güman ki, totemizm qalığı olan ilan ayini ilə bağlıdır. Bu tip boyunbağı və bilərziklərdən istifadə etmək adətləri hazırda əvvəlki mahiyyətini itirmişdir və əsasən bəzək məqsədi daşıyır. Bu xüsusiyyət tətbiqi və təsviri incəsənət sahələrinə də aiddir.

---

[14] Tufan Axundov, *İssledovaniya I Şekinskoqo otryada 1985 q, Arxeoloqiçeskie otkrıtiya,* "Nauka" Moskva 1987, s. 547.
[15] *Şəki-Oğuz arxeoloji qrupunun muzeyi,* inv. 50-56.
[16] Nəsib Muxtarov, *1999-cu ilin hesabatı, Əlyazma hüququnda,* s. 6-17.
[17] *Şəki-Oğuz arxeoloji qrupunun muzeyi,* inv. 82-105.
[18] Fazil Osmanov, *Albaniyanın maddi mədəniyyəti* , (e.ə. IV-b.e.III əsrləri), "Elm" nəşriyyatı, Bakı 1982, s. 98-99.

2011-ci ildə Oğuz-Dərəzəmin ərazisində 7 saylı qəbirdən 2 ədəd saç yığmaq üçün sancaq, 2 ədəd tunc bilərzik, 3 ədəd iynə, 8 ədəd tunc üzük, 2 ədəd halqa, 1 ədəd amulet xarakterli ilbiz çanağı və 1 ədəd qarnıyarıq, 9 ədəd qırmızı əqiqdən boyun və qol üçün iri muncuq, 1 ədəd xaçabənzər 4 guşəli asma fiqur aşkarlanmışdır. Xocalı-Gədəbəy mədəniyyəti dövrünü əhatə edən silah və bəzək nümunələrinin cəmi sayı 65 ədəd olmuşdur. Şəkil 8.[19]

Qeyd edilən zinət və bəzək əşyalarına nəzər saldıqda Şəki bölgəsində tunc və erkən dəmir dövrlərində sənətkarlığın inkişafının özünəməxsus xarakter daşıdığını, qəbirlərə zinət əşyaları qoyulması adətinin Azərbaycanın digər bölgələrində və qonşu xalqlarda olduğu kimi davam etdiyini müşahidə etmiş oluruq. Digər tərəfdən dəfn adətində və inşa quruluşunda Şimali Qafqazın mərkəzi rayonları və Kabarda-Balkariyanın həmdövr abidələri eyniyyət təşkil edən Şəki kurqanlarından Ön Asiya mənşəli bəzəklərin də aşkarlanması qeyd edilən bölgələrlə etno-mədəni əlaqələr saxlandığını sübut edir.[20]

## II. Antik və ilk orta əsr qadın zinət əşyaları və bəzəkləri

Qafqaz Albaniyasının zərgərlik sənətinin inkişafını tədqiqatçılar iki mühüm dövrə aid edirlər: e.ə. IV əsrdən e.ə. I əsrədək və I əsrdən-VIII əsrədək olan dövrlər. I mərhələ üçün əsasən asmalar (sırğalar), üzərində yazısı və nömrəsi olan metal lövhəciklər-nişan nömrələr, düymələr, tanalar, diademalar (qadınların başlarına qoyduqları tacşəkilli daş-qaşlı bəzək-müəlliflər), boyunbağılar, bilərziklər və s. xarakterikdir. II mərhələ daha çox bədii plastik (ahəngdar) formaların zənginliyi ilə bərabər müxtəlif texnoloji metodların inkişafı ilə xarakterizə olunur.[21]

Albaniyanın antik dövrə aid bir çox yaşayış yerləri və qəbir abidələrindən tunc bilərziklər, qızıl sırğa və üzüklər, gil, metal, şüşə, pasta kimi materiallardan hazırlanmış muncuqlar aşkar edilmişdir. Bəzək şeyləri-gil bilərziklər qırmızı və boz rəngdə hazırlanmış, üzəri hamar şəklə salınaraq müxtəlif doğrama, kəsmə və cızma naxışlarla bəzədilmişdir. Bəzilərinin ucları ilan başlığını xatırladır (e.ə. III-e.ə I əsrlər). Bundan əvvəlki dövrlərə aid istər bəzək, istərsə də, dini məqsəd üçün hazırlanmış bilərziklər (daş bilərziklər istisna) müxtəlif metallardan ibarətdir.[22] Alban zərgərləri həmçinin, qızıl muncuqlarla yanaşı sardoniks (qiymətli daş), əqiq (qırmızı və narıncı rəngli qiymətli daş), serpentin (tünd yaşıl və

---

[19] *Şəki-Oğuz arxeoloji qrupunun muzeyi*, Inv. 165.
[20] *Azərbaycan tarixi*, Yeddi C.də, I C. (Ən qədimdən b.e. III əsri), "Elm", Bakı 2007, s. 147-148.
[21] N. Rzaev, *İskusstvo Kavkazskoy Albanii IV v.do n.e-VII v.n.e*, "İzdatelstvo "Elm", Baku 1976, s. 131.
[22] F. Osmanov, *a.g.e.*, s. 97-101.

ya sarı-yaşıl rəngli daş), lyapis (cəhənnəm daşı, gümüş nitrat), lazur-lazurit (qiyməyli daş), pirit (dəmir kolçedanı) və s.-dən magik xarakter daşıyan daş muncuqlar da hazırlayırdılar.[23]

Zərgərlik nişanələri içərisində rəngli daş cinsindən olan şəxsi möhür, xırda oyuncaqlar, sümük zərlərə və daraqlara da rast gəlinmişdir.[24]

Şəki ərazisində aparılan arxeoloji qazıntı işlərinin gedişində antik və ilk orta əsr yaşayış məskənləri və nekropollarından müxtəlif formalı dulus məmulatı, silahlar, bəzək və zinət əşyalarının aşkarlanması ayrı-ayrı sənət sahələrinin qeyd edilən dövrdə davamlı inkişafda olduğunu söyləməyə əsas verir. Hələ 1984-cü ildə V.A.Məmmədov və N.M.Muxtarov tərəfindən müasir Şəki şəhəri ərazisində arxeoloji tədqiqatlar aparılmış, küp və torpaq qəbirlər tədqiq edilmişdir. Öyrənilən qəbir abidələrindən birində skeletlərin yanından dulus materialından hazırlanmış qablarla yanaşı, əmək alətləri, silahlar, toxuculuqda işlənən əl iyi, həmçininn zinət əşyaları əldə edilmişdir.[25]

1986-cı ildə arxeoloq N.M.Muxtarovun rəhbərliyi ilə Şəkinin Kiş kəndi ərazisində qazıntı-xilasetmə işləri aparılmış, Kiş dərəsi nekropulunda torpaq qəbirdən müxtəlif keramika nümunələri, qab-qacaqlar, dəmir əmək aləti və bəzək əşyaları (üzük, sırğa, nazik zəngir formalı sep) aşkar edilmiş, nümunələrin son antik-ilk orta əsrlərin əvvəlinə aid olduğu müəyyən edilmişdir.[26]

Sonrakı illərdə də də bu istiqamətdə axtarışlar davam etdirilmişdir. Nəhayət, 2020-ci ildə Şəkidə "Kiş" Tarix-Memarlıq Qoruğunda Azərbaycan-Qazaxıstan beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən arxeoloji və antropoloji tədqiqatlar aparılmışdır. Arxeoloq Z.H.Həsənovun rəhbərliyi aparılan tədqiqatlar nəticəsində 1 nömrəli qazıntı sahəsinin şimal hissəsindən Qafqazda və Yaxın Şərqdə təkrarı olmayan böyük küpdə kollektiv dəfn aşkar olunmuş, küpün içərisindən və həmçinin ətrafından silah nümunələri-nizə başlıqları və xəncər, canavar dişindən və maral buynuzundan amuletlər, tunc boyunbağı, sümükdən və tuncdan düzəldilmiş müxtəlif düymələr və bir sıra maddi-mədəniyyət nümunələri əldə olunmuşdur. 2 saylı qazıntı sahəsinin 2 nömrəli qəbirində yenə kollektiv dəfn olunmuş qəbirdən antik dövrə aid saxsı qablara, böyük dairəvi, oval və aypara formalı tunc asma və tikmə bəzəklərə, tunc, şüşə və pastadan olan muncuqlara, tunc düymələrə, tunc zəncirlərə,

---

[23] N. Rzaev, *a.g.e.*, s. 134.

[24] Aləm Nuriyev, *Remeslo Kavkazskoy Albanii (III-VIII vv.)*, “MVM” Baku 2009, s. 204.

[25] Vaxid Mamedov, Nasib Muxtarov, *O rabote Şekinskoqo otryada 1984 q, “Arxeoloqiçeskie otkrıtiya”*, “Nauka”, Moskva 1986, s. 422.

[26] Nasib Muxtarov, Paşa Paşayev, *Paskopki v Şekinskom rayone 1986 q, “Arxeoloqiçeskie otkrıtiya”*, “Nauka”, Moskva 1988, s. 461-462.

dəmir və tunc qolbaqlara, dəmir nizə ucluqlarına, dəmir bıçaqlara, göz muncuğularına təsadüf edilmişdir.[27]

Ümumilikdə ərazidə eramızın I minilliyinin sonlarınadək qəbirlərə avadanlıq qoymaq adəti davam etmişdir. Eramızın ilk əsrlərindən etibarən bölgədə xristianlığın, daha sonralar İslam dininin yayılmağa başlaması bu adətin, həmçinin zoomorf tipli bəzək və zinət əşyaları hazırlanmasının tədricən aradan qalxmasına səbəb olmuşdur. Xristianlığın gücləndiyi V-VII əsrlərə aid alban ədəbi nümunəsində bu barədə olan qeydlər xüsusilə diqqəti cəlb edir: “O ki, qaldı o kəslərə ki, onlar sinələrində ilan təsvirli qızıl və gümüş bəzəklər gəzdirir, onların barəsində İncildə deyilir: “Onları Allahın qəzəbli günündə nə onların qızılı, nə də gümüşləri xilas edə biləcəkdir”.[28]

Bununla belə, təkallahlı dinlərin zinət əşyaları istehsalını qadağan etməməsi, xüsusilə qadın zinət əşyaları hazırlanmasına müəyyən mənada rəvac verməsi bu sənətkarlıq sahəsinin inkişafını şərtləndirmişdir. Müqəddəs kitabımız “Qurani-kərim”də bər-bəzək içərisində böyüdülmənin qızlara məxsus xüsusiyyətlərdən olduğunun qeyd edilməsi[29] dediklərimizi təstiqləmiş olur.

Qafqaz Albaniyasının sənətkarlıq tarixini tədqiq edən azərbaycanlı tədqiqatçı alim, arxeoloq Aləm Nuriyev ilk orta əsrlərdə zərgərliyin inkişaf xüsusiyyətlərini təhlil edərək aşağıdakı qənaətə gəlmişdir: “...şəhərdaxili hissədə ayrıca məhəllə kimi “Zərgərtəpə”, “Zərrabı”, “Muncuqtəpə”, “Zəgəran”, “Zərqava”, “Zarıstı” və s. toponimlərin olması bir daha sübut edir ki, ilk orta əsrlərdə zərgərlik sənətin digər sahələrindən ayrılmış və zərgərlər ayrıca zümrə kimi sənətkarlıq fəaliyyətində olmuşlar”.[30]

Zərgərlik işi yalnız bədən və geyim aksesuarlarının hazırlanması ilə məhdudlaşmamış, e.ə. III – b.e.-nın VIII əsrlərində ölkədə hərbi-siyasi vəziyyətlə əlaqədar zərgərlər (sənətkarlar) silahların da bəzədilməsilə məşğul olmuşlar.[31] Həmçinin, Albaniyanın ayr-ayrı ərazilərindən üzərinə bəzək elementləri əlavə edilən antromorf fiqurların tapılması zinət ustalarının peşəkarlıq səviyyəsindən xəbər verir. Belə antromorf fiqurlar Şəki ilə yanaşı, Mingəçevirdən, İsmayılı. Ağsu və digər rayonlarda aşkarlanmışdır. Mingəçevirdən aşkar edilmiş antropomorf fiqurlardan bəzisinin ayağında bilərziyi, boynunda boyunbağını xatırladan bəzəklər, digər bir qadın fiqurundabel hissədə yapma gil kəmər, boynun hissədə 9 cərgə yapma muncuq, İsmayıllı rayonu Molla İsaklı kəndindən tapılan qadın fiqurlarlarında boyunbağını xatırladan

[27] http://www.science.gov.az/news/open/15385( 16.12.2020 ).
[28] Moisey Kalankatuklu, *Albaniya tarixi*, Mxitar Qoş, *“Alban salnaməsi”*, “Avrasiya press”, Bakı 2006, s. 160.
[29] *Qurani-Kərim*, Əz-Zuxruf (“Qızıl bəzəklər”) surəsi, 18-ci ayə
[30] A. Nuriyev, *a.g.e.*, s. 423.
[31] N. Rzayev, *a.g.e.*, s. 131.

bəzək, kiçik muncuq düzümünü bildirən oyuqlar, Ağsu rayonu Nuran kəndi yaxınlığındatapılan qadın fiqurunda başbəzəyi vardır.[32]

[32] F. Osmanov, *a.g.e.,* s. 89-91.

**Nəticə**

Azərbaycan Respublikasının, həmçinin Qafqaz Albaniyasının şimal-qərbində yerləşən Şəkinin arxeoloji baxımdan öyrənilməsinə gec başlanılmış, aparılan arxeoloji tədqiqatlar sistematik səciyyə daşımamamışdır. Bununla belə, haqqında qeyd edilən zinət və bəzək nümunələrinin bir çoxuna bu bölgədə rast gəlinmişdir. Tunc dövründən başlayaraq orta əsrlər dövrünə qədərki tarixin maddi və mənəvi mədəniyyətini özündə ehtiva edən arxeoloji abidələrin öyrənilməsi zinət əşyaları və bəzəklər haqqnda da müəyyən fikirlər söyləməyə, burada yaşayan insanların yüksək zövqə malik zinət və bəzək əşyalarından istifadə etdiyini, sənətkarlığın bu sahəsinin inkişafda olduğunu ifadə etməyə imkan verir. Qadın zinət əşyaları və bəzəklərin öyrənilməsi bölgədə yaşayan insanların tunc dövründən etibarən Ön Asiya və Şimali Qafqazla etno-mədəni əlaqələr saxladığını, qarşılıqlı ticarət əlaqələri apardığını təstiq edir. Şəkinin qadın zinət əşyaları və bəzəklərinin hazırlanma texnologiyasına, tiplərinə və formalarına nəzər saldıqda onların ümümazərbaycan incəsənətinin tərkib hissəsi olduğu qənaətinə gəlmək mümkündür.

**Ədəbiyyat siyahısı**

ABDURAHMANOV, E., XƏLİLOV, H., "Şəki şəhərinin XVIII-XX əsr epiqrafik abidələri", *"Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda I beynəlxalq elmi konfrans,* 29-30 oktyabr, Bakı 1918-ci il, s.703.

AXUNDOV, T., "İssledovaniya I Şekinskoqo otryada 1985 q", *"Arxeoloqiçeskie otkrıtiya" jurnalı,* "Nauka", Moskva 1987, 654 str.

AXUNDOV, T., *"Severo-zapadnıy Azerbaydjan v epoxu eneolita-bronzı",* "Elm", Baku 2001, 331 str.

ANDREEVSKİY, V., "İstoriya Odejdı", *Voloqda "Qosizdat"* 1922, 24 str; 20 list illustrasii.

AZƏRBAYCAN ETNOQRAFİYASI., Üç cilddə. II C., "Şərq-Qərb", Bakı 2007, s.384.

AZƏRBAYCAN TARİXİ, *Uzaq keçmişdən 1870-ci ilə qədər,* (S.Əliyarlının redaktəsi ilə), II nəşri, "Çıraq", Bakı 2009.

AZƏRBAYCAN TARİXİ., Yeddi C.də. I C. (Ən qədimdən b.e. III əsri), "Elm" Bakı 2007.

ƏLİYEVA, K., *Azərbaycanın qadın bəzəklərinin təsnifatı,* 2017-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları, Elmi sessiyanın materialları, Arxeologiya və Etnoqrafiya İnstitutu, Bakı 2017.

HƏSƏNOV, Y., *İbtidai icma tarixi,* Dərs vəsaiti. Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, Bakı 1963.

KALANKATUKLU, M., *Albaniya tarixi,* QOŞ M.,*"Alban salnaməsi",* "Avrasiya press", Bakı 2006.

KAVKAZ QƏZETİ (rus dilində)., 13 iyun, 1846-cı il, №24.

QURANİ-KƏRİM., Əz-Zuxruf, 18.

MAMEDOV, V.A., MUXTAROV, N.M., "O rabote Şekinskoqo otryada 1984 q", *"Arxeoloqiçeskie otkrıtiya" jurnalı,* "Nauka" , Moskva 1986, 509 str.

MAMEDOVA, F., *"Kavkazskaya Albaniya i albanı",* Baku Ü. Sentr İssledovaniy Kavkazskoy Albanii, Ü, 2005.

MUXTAROV, N., *1999-cu ilin hesabatı,* Əlyazma hüququnda.

MUXTAROV, N., ve PAŞAYEV P., "Paskopki v Şekinskom rayone 1986 q", *"Arxeoloqiçeskie otkrıtiya" jurnalı,* "Nauka" , Moskva 1988, s.544 str.

NURİYEV, A., *Remeslo Kavkazskoy Albanii* (III-VIII vv.), "MVM", Baku 2009.

OSMANOV F., *Albaniyanın maddi mədəniyyəti* (e.ə. IV-b.e.III əsrləri), "Elm" nəşriyyatı, Bakı 1982.

RZAEV, N., *İskusstvo Kavkazskoy Albanii IV v.do n.e-VII v.n.e,* "İzdatelstvo "Elm" , Baku 1976.

SADIQZADƏ, Ş., *Qədim Azərbaycan Bəzəkləri,* "İşıq" nəşriyyatı Bakı 1971.

http://www.science.gov.az/news/open/15385(16.12.2020).

 

## Şəkillər




*Şəkil 1*



*Şəkil 2*



*Şəkil 3*




*Şəkil 4*




*Şəkil 5*




*Şəkil 6*



*Şəkil 7*




*Şəkil 8*